# MƏDƏNİYYƏT DİPLOMATİYASI DÖVLƏTLƏRİN XARİCİ SİYASƏTİNDƏ

**Eldar Cəfərov**

*Bakı Dövlət Universiteti, Beynəlxalq münasibətlər və İqtisadiyyat fakültəsi, siyasi elmlər üzrə fəlsəfə doktoru, müəllim*
*eldarjafarov@bsu.edu.az*
*orcid:0000-0001-8563-697X*

**Xülasə**

*Dövlətlərarası əlaqələrin həyata keçirilməsi beynəlxalq münasibətlərin inkişafı ilə müxtəlif aspektləri özündə birləşdirməyə davam edir. Hal-hazırda qloballaşma fenomeninin təsiri, KİV-lərin inkişafı ilə dünya dövlətləri arasındakı sərhədlər tədricən yox olur və birindən digərinə müəyyən fikir və ideyalar ötürülür. Bu ideyaların daşıyıcısı qismində dövlətlərin mənsub olduğu milli mədəniyyətlər təmsilçi kimi çıxış edir. Bu zaman dövlətlərarası əlaqələrdə mədəniyyət mahfumu öz anlamını dövlətin xarici siyasətində qazanmağa başlayır. Çoxaspektli diplomatik əlaqələrin bir qolu kimi mədəniyyət diplomatiyası dövlətlərin məqsədlərinin həyata keçirilməsində, imicinin formalaşdırılmasında, digər dövlətlərlə əlaqələrinin genişləndirilib, dərinləşdirilməsində xüsusi rol oynayır. Beləcə mədəniyyət diplomatiyası dövlətlərin xarici siyasətində öz anlamını qazanır.*

***Açar sözlər:*** *mədəniyyət, mədəniyyət diplomatiyası, dövlətlərarası münasibətlərdə mədəniyyət amili*

Mədəni diplomatiya(və ya "Mədəniyyətlərarası diplomatiya") əsrlər boyu bir təcrübə kimi mövcud olmuşdur. Mədəni diplomatiya termini yeni yaransa da, onun praktikasına dair sübutlar tarix boyu müşahidə oluna bilər və əsrlər boyu mövcud olmuşdur. Kəşfiyyatçılar, səyyahlar, rəssamlar və.s hamısı "qeyri-rəsmi səfirlər" və ya erkən "mədəniyyət diplomatları"nın canlı nümunələri hesab oluna bilərlər.

Mədəni diplomatiya ən yaxşı şəkildə ideyalar, dəyərlər, ənənələr və mədəniyyət və ya kimliyin digər aspektləri mübadiləsinə əsaslanan və ondan istifadə edən, əlaqələri gücləndirmək, sosial-mədəni əməkdaşlığı gücləndirmək, milli maraqları təşviq etmək üçün istifadə olunan bir yumşaq güc aləti kimi dəyərləndirilir. Mədəni diplomatiya dövlət sektoru, özəl sektor və ya vətəndaş cəmiyyəti tərəfindən həyata keçirilə bilər.

Praktikada mədəni diplomatiyanın həyata keçirilməsi əsasən diplomatik orqanlar, lakin bəzən diplomatik olmayan digər subyektlər (diplomatik orqanlarla əməkdaşlıqda fəaliyyət göstərən) tərəfindən də həyata keçirilən müxtəlif fəaliyyətləri əhatə edə bilər. Şübhəsiz ki, bu mədəni-diplomatik fəaliyyətlərin ən mühüm hissələrindən biri qəbul edən dövlətdə göndərən dövlətin milli mədəniyyətinin və mədəni kimliyinin yayılmasında mədəniyyət subyektlərinə yardım etməkdir. Bu yardım məsələn, maddi-texniki, texniki, təşkilati və/və ya təminat daxil ola bilər.

Hazırkı dünyada mədəniyyət, beynəlxalq münasibətlərə və xarici siyasətə getdikcə daha çox nüfuz edir. Mədəni diplomatiya ölkələr tərəfindən mədəni

fərqliliklərini təşviq etmək üçün istifadə olunur. Beləliklə, dünyanın mədəni müxtəlifliyini artırır, eyni zamanda əməkdaşlığa və dialoqa yol açır. Ölkələrin bir-birindən getdikcə daha çox asılı olduğu qloballaşan və bir-biri ilə əlaqəli dünyada mədəni diplomatiya sülhün və sabitliyin təmin edilməsində mühüm rol oynaya bilər.

Qarşılıqlı anlaşma, etimad və mədəni müxtəlifliyi dəstəkləməklə, əməkdaşlığın bir çox sahələrində beynəlxalq əlaqələri gücləndirilir. Mədəniyyətlərarası dialoqun bu unikal forması rəqabətli maraqlardan kənarda çoxtərəfli əməkdaşlığı gücləndirmək və yeniləmək, qlobal ictimai sərvətləri irəli sürmək, eyni zamanda dezinformasiya, sosial bərabərsizliklər, münaqişə və iqlim dəyişikliyi kimi dövrümüzün bəzi aktual problemlərini həll etmək gücünə malikdir.

Mədəni diplomatiyanın dövlətlərin xarici siyasətində oynadığı rolu anlamaq üçün onun məqsədləri aydınlaşdırılmalıdır. Ümumilikdə mədəni diplomatiyanın məqsədləri ilə bağlı səkkiz amil müəyyənləşdirilmişdir.

1. Digər dövlətlərlə dialoq qurmaq və qarşılıqlı etimad yaratmaq;
2. Mədəni(və siyasi) tanınmağa nail olmağa çalışmaq;
3. İqtisadi mənfəət əldə etmək;
4. Milli mədəniyyətin imicini və nüfuzunu yüksəltmək;
5. Ölkə ilə bağlı qərəzləri və şübhələri sarsıtmaq;
6. Milli mədəniyyətin təfsirlərini yarışdırmaq;
7. Digər fəaliyyət sahələrində gələcək tərəfdaşlıq üçün zəmin yaratmaq;
8. Müəyyən bir hekayəyə, inanc sisteminə və ideologiyaya əsaslanan dünya görüşünü təşviq etmək;

XXI əsrdə mədəni diplomatiya siyasi regionda və müxtəlif sosial qruplarda müsbət kənar maraq yaratmaq üçün nəzərdə tutulmuş kommunikativ fəaliyyətlərdən (məsələn, televiziya kanpaniyaları, radio proqramları və beynəlxalq proyekt tədbirləri) ibarətdir. Bu fəaliyyətlərdən istifadə edərək hökumətlər müəyyən siyasi arena üçün faydalı hesab edilən müxtəlif xarici hərəkətləri (turizm, investisiya və s.) təşviq edirlər. Mədəni diplomatiya isə xalq diplomatiyasının alt başlığı kimi milli kimliyin formal təsnifatı üçün əsas kimi incəsənət, elm və digər mədəni ifadələrə hökumətlərin sistematik müdaxiləsini nəzərdə tutur. Hazırda mədəniyyət diplomatiyasının özəlliyi müxtəlif miqyasda və səviyyələrdə yeni aktorların çoxalması və millətlərüstü təşkilatların əhəmiyyətinin artması ilə xarakterizə olunur. Bir millətin hökuməti, eləcə də iş adamları, sənətçilər, immiqrantlar və s. də bu mürəkkəb sahədə iştirak edir. Onların dəyişiklikləri çox vaxt rəsmi mədəniyyət tərifləri ilə əvvəlcədən müəyyən edilir və rəsmi mədəniyyət siyasəti və milli kimlik ilə eynidir. Ümumi strategiya kimi qurulan bu beynəlxalq mədəniyyətin təşviqi siyasətlərinin birləşməsi mədəni diplomatiya kimi qiymətləndirilə bilər.





## CULTURAL DIPLOMACY IN THE FOREIGN POLICY OF STATES


**Abstract**

*Implementation of interstate relations continues to incorporate various aspects with the development of international relations. Nowadays, due to the influence of the phenomenon of globalization, the development of mass media, the borders between the countries of the world are gradually disappearing, and certain thoughts and ideas are being transferred from one to another. As the carrier of these ideas, the national cultures to which the states belong act as representatives. At this time, the concept of culture in interstate relations begins to gain its meaning in the state's foreign policy. As a branch of multi-faceted diplomatic relations, cultural diplomacy plays a special role in realizing the goals of states, shaping their image, expanding and deepening their relations with other states. Thus, cultural diplomacy gains its meaning in the foreign policy of states.*


***Keywords:*** *culture, cultural diplomacy, cultural factor in interstate relations*

## КУЛЬТУРНАЯ ДИПЛОМАТИЯ ВО ВНЕШНЕЙ ПОЛИТИКЕ ГОСУДАРСТВ


**Резюме**

*Реализация межгосударственных отношений продолжает включать в себя различные аспекты развития международных отношений. В настоящее время из-за влияния явления глобализации, развития средств массовой информации границы между странами мира постепенно стираются, происходит перенос определенных мыслей и идей из одной в другую. В качестве носителей этих идей выступают национальные культуры, к которым принадлежат государства. В это время понятие культуры в межгосударственных отношениях начинает обретать свое значение во внешней политике государства. Как отрасль многогранных дипломатических отношений культурная дипломатия играет особую роль в реализации целей государств, формировании их имиджа, расширении и углублении их отношений с другими государствами. Таким образом, культурная дипломатия обретает свое значение во внешней политике государств.*


***Ключевые слова:*** *культура, культурная дипломатия, культурный фактор в межгосударственных отношениях*

## AZƏRBAYCANIN İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ DÖVLƏTİN PRİORİTET VƏZİFƏLƏRİ KONTEKSTİNDƏ


**Esmira Rövşənova**

*BDU, Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müəllimi*



**Xülasə**

*İnformasiya texnologiyalarının inkişafının və tətbiqinin yüksək olduğu bir dövrdə informasiya təhlükəsizliyi xüsusilə aktualdır. Çünki təhlükəsizlik təkcə dövlətin deyil, eyni zamanda millətin, xalqın, hər bir vətəndaşın fəaliyyətinin, azadlığının, sabitliyinin təməli və qarantıdır. Müharibələrin təkcə döyüş meydanlarında deyil, eyni zamanda informasiya sahəsində aparıldığı bir dövrdə milli maraqlar kontekstində informasiya təhlükəsizliyinin təmin edilməsi və qorunması dövlət siyasətində əsas prioritet vəzifə olmalıdır. Məqalədə*

*Azərbaycan Respublikasında müstəqillik illərindən sonra informasiya təhlükəsizliyinin təmin olunması ilə bağlı görülmüş işlər, qəbul olunmuş qanunlar təhlil edilmiş, yarana biləcək hər hansı xarici təhdidlərin qarşısının alınması üçün görülməsi vacib tədbirlərdən bəhs olunmuşdur.*

***Açar sözlər:** informasiya təhlükəsizliyi, söz və informasiya azadlığı, media, informasiya müharibəsi, qanun, konsepsiya, müstəqil KİV*

Azərbaycanda söz və informasiya azadlığının bərqərar olması, azad informasiya mühitinin və müstəqil kütləvi informasiya vasitələrinin yaradılması siyasəti Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Çünki Heydər Əliyev bu sahədə dünya təcrübəsinə yaxşı bələd olan bir rəhbər kimi yaxşı bilirdi ki, hər bir ölkənin informasiya məkanı, informasiya ehtiyatları və texnologiyaları cəmiyyətin sosial-iqtisadi, elmi-texniki və mədəni inkişafının səviyyəsini və dinamikasını müəyyənləşdirir. Məhz onun prezidentliyi dövründə ölkədə azad, müstəqil, beynəlxalq rəqabətədavamlı, demokratik milli kütləvi informasiya vasitələrinin formalaşması və hərtərəfli inkişafının təmin edilməsi istiqamətində məqsədyönlü siyasət həyata keçirilməyə başlanmışdır. Və məhz Heydər Əliyevin rəhbərliyi altında ölkədə plüralizmi, söz və məlumat azadlığını məhdudlaşdıran bütün süni maneələr aradan qaldırılmış, kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən qanunvericilik bazası təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılmışdır.

1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının yeni Konstitusiyasında söz, fikir və məlumat azadlığı, hər kəsin məlumat almaq və yaymaq hüququ, KİV üzərində hər hansı senzuranın yolverilməzliyi birmənalı şəkildə təsbit edilmişdir. Ötən əsrin sonlarından başlayaraq Azərbaycanda söz və məlumat azadlığının təmin olunması, demokratik, plüralist mətbuatın formalaşması, onun hüquqi-normativ bazasının qurulması, iqtisadi müstəqilliyinin təmin edilməsi üçün geniş imkanlar yaradılmışdır. Azərbaycan Prezidentinin 6 avqust 1998-ci il tarixli Fərmanı ilə Nazirlər Kabineti nəzdində mətbuatda və digər KİV-lərdə dövlət sirlərini mühafizə edən baş idarə ləğv edilərək [1] senzuraya birdəfəlik son qoyulmuşdur. Fərmanda nəzərdə tutulan digər tədbirlər müstəqil KİV-in inkişafını, vətəndaşların beynəlxalq hüquq və Azərbaycan Konstitusiyası ilə təsbit olunmuş söz, məlumat və fikir azadlığını təmin etmişdir. Daha sonra dövlət informasiya siyasətinin ardıcıllığını təmin etmək məqsədi ilə 2000-ci ildə Mətbuat və İnformasiya Nazirliyi ləğv olunmuş və dövlətin mətbuat üzərində nəzarət funksiyasından imtina edilmişdir. 2003-cü ildə Azərbaycan Jurnalistlərinin I Qurultayında mətbuatın özünütənzimləmə orqanı və dövlət qurumları ilə mətbuat arasında münasibətlərin nizamlanması funksiyalarını yerinə yetirən müstəqil Mətbuat Şurası yaranmışdır.

1999-cu ilin dekabrında "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu yeni formatda qəbul olundu [9] və mütəxəssislərin fikrinə görə, bu qanun öz dövrü üçün bütün demokratik tələblərə: söz və məlumat azadlığına, KİV-lərin və jurnalistlərin müstəqilliyinə və sərbəst fəaliyyətinə təminat verirdi. Bundan başqa 2002-ci ildə Avropa Şurası ilə əməkdaşlıq şəraitində beynəlxalq standartlara tam cavab verən "Televiziya və radio yayımı haqqında" Qanun işlənib hazırlanmış və qəbul edilmiş [13], 2003-cü ildə elektron KİV sahəsində fəaliyyətin demokratik normalara uyğun qurulmasını təmin edəcək, öz fəaliyyətində yalnız qanuna tabe olan bir qurum - Milli Televiziya və Radio Şurası yaradılmış, 2004-cü ildə "İctimai Televiziya və radio yayımı haqqında" qanun layihəsi işlənib hazırlanmış və qəbul edilmişdir [7]. Qeyd etmək lazımdır ki, qanunun hazırlanmasında Avropa Şurasının ekspertləri bilavasitə iştirak etmiş və əksər prinsipial müddəalar onlarla razılaşdırılmışdır. Bundan başqa, 2004-cü ildə "Dövlət sirri haqqında", 2005-ci ildə Jurnalistlərin informasiya almaq azadlığının tam reallaşdırılması üçün "İnformasiya əldə etmək haqqında" Qanun təsdiq olunmuşdur [8].

Qeyd edilən qanunlar arasında "KİV haqqında" qanun əsasən çap mediası üçün tənzimləyici baza rolunu oynayırdı. Özündən əvvəlki yerli qanunlarla müqayisədə KİV haqqında qanun 2001-ci ildə ona edilmiş dəyişikliklərdən KİV-in qorunmasına təminat, senzura və müdaxilənin qadağan edilməsi kimi müsbət tərəqqiləri ehtiva edirdi. Ancaq zaman keçdikcə qanunun müasir dövrlə səsləşməyən bəzi çatışmazlıqları yerli və beynəlxalq ekspertlərin tənqidləri ilə müşayət olunurdu. Məhz 2014, 2015 və 2016-cı illərdə həmin qanuna əlavə və dəyişikliklər - media platformalarının yaradılması və media platformasının ləğvi prosedurları ilə bağlı olunmuşdu. 2022-ci ildə isə "Media haqqında" yeni qanunun qüvvəyə minməsi ilə həm "KİV haqqında", həm də teleradio mediasını tənzimləyən "Televiziya və radio yayımı haqqında" qanunlar ləğv edildi [14].

Qeyd olunan qanunların hazırlanıb qəbul olunması Azərbaycanın informasiya sahəsindəki dövlət siyasəti baxımından çox mühüm addımlar oldu. Belə ki, təkcə bu faktı göstərmək kifayətdir ki, "İnformasiya əldə etmək haqqında" Qanun qəbul edildikdən sonra dövlət orqanlarında ictimaiyyətlə əlaqələr idarələrinin və mətbuat xidmətlərinin formalaşdırılmasına başlanmışdır. Qanunla müəyyən edilmiş bütün informasiya sahibləri, mərkəzi və yerli hakimiyyət qurumları onlara məxsus internet informasiya resusları yaradaraq jurnalistlərin xidmətinə təqdim etmişlər. Hazırda da həmin resursların fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

Müstəqillik illərində Azərbaycanda söz və məlumat azadlığının təmin edilməsi, KİV-lərin maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl qərarlar qəbul edilmiş, müvafiq fərman və sərəncamlar imzalanmışdır. 1998-ci ilin sonunda KİV-lərin maddi-texniki bazasının yaxşılaşdırılması məqsədi ilə ölkə prezdentinin Sərəncamı ilə qəzet redaksiyaları əlavə dəyər vergisindən azad edilmişdir. Vergi Məcəlləsində KİV-lərin inkişafının stimullaşdırılması, onların maliyyə durumunun yaxşılaşdırılması və maddi-texniki bazasının gücləndirilməsi üçün sərfəli güzəştlər nəzərdə tutulmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il iyulun 20-də imzaladığı "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər haqqında" Fər-

manla ölkəyə gətirilən qəzet kağızına gömrük rüsumları ləğv olunmuş, qəzetlərə uzunmüddətli və güzəştli kreditlər verilməsi qərara alınmışdır. Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2002-ci il tarixli Sərəncamı ilə Sahibkarlığa Kömək Milli Fondundan KİV sahəsində layihələrin maliyyələşdirilməsi üçün 600 min manat vəsait ayrılmışdır. 2003-cü il yanvarın 9-da Azərbaycan Prezidentinin Sərəncamı ilə qəzetlərin "Azərbaycan" nəşriyyatına borcları 3 il müddətinə dondurulmuş, 2006-cı ilin martında isə onların 450 min ABŞ dolları həcmində borcunun dövlət büdcəsi hesabına ödənilməsi qərara alınmışdır. Qeyd edilməlidir ki, 2000-ci ildən Azərbaycan milli mətbuatının yubileyləri dövlət səviyyəsində qeyd olunur. 2005 və 2010-cu illərdə yüzlərlə jurnalist fəxri adlar və dövlət mükafatları ilə təltif olunmuşlar. Hər il ölkənin aparıcı qəzet redaksiyaları və informasiya agentliklərinə dövlət tərəfindən birdəfəlik maliyyə yardımı ayrılır. 2008-ci il iyulun 30-da Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"təsdiq edilmişdir [5]. Kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyinin əsas məqsədi vətəndaş cəmiyyəti quruculuğu prosesində KİV-in rolunu nəzərə almaqla fikir, söz və məlumat azadlığını inkişaf etdirmək, kütləvi informasiya vasitələrinin müstəqilliyini dəstəkləmək, redaksiyalara yardım mexanizmini təkmilləşdirmək, informasiya sektorunda yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiqini stimullaşdırmaq, cəmiyyət və kütləvi informasiya vasitələri arasında səmərəli əməkdaşlığı gücləndirmək, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artmasına şərait yaratmaq, sosial müdafiəsini gücləndirmək, dövlət və cəmiyyət üçün prioritet təşkil edən məsələlərin həllində kütləvi informasiya vasitələrinin potensialından səmərəli istifadə etməkdən ibarətdir. 2009-cu il aprelin 3-də Konsepsiyanın tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılmışdır. Fondun əsas vəzifəsi söz və məlumat azadlığının, kütləvi informasiya vasitələrinin inkişaf etdirilməsi olsa da daha sonra bu qurumun təşkilati-hüquqi formasının geniş tədbirlərin həyata keçirilməsinə imkan verməməsi səbəbindən ləğvinə və yerində Medianın İnkişafı Agentliyinin yaradılmasına qərar verilmişdir. Beləliklə, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" 2021-ci il 12 yanvar tarixli 1249 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi (MEDİA) yaradılmışdır.

Qeyd etmək lazımdır ki, bütün bu tədbirlər Azərbaycanda söz və informasiya azadlığının təmin olunması, müstəqil KİV-lərin inkişafı və beynəlxalq rəqabətədavamlılığının artırılması, medianın maddi texniki bazasının gücləndirilməsi, ölkə jurnalistlərinin peşəkarlığının artırılması və s. sahələrdə həyata keçirilən dövlət siyasətini əks etdirirdi və tezliklə öz müsbət nəticələrini də göstərmişdir. Belə ki, son illərdə jurnalistlərin insanları böhtan və təhqir etmə, reketçilik maddəsi ilə və ümumən yaradıcılıq fəaliyyəti ilə bağlı həbsə alınması faktları xeyli dərəcədə azalmışdır.

Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti dövlət,





ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasından, habelə informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsindən ibarətdir.

Yeni minilliyin başlanğıcından dünyanın müxtəlif ölkələrində, xüsusən də inkişaf etmiş dövlətlərdə İKT-nin inkişafı, qabaqcıl inkişaf texnologiyaları və innovativ iqtisadi münasibətlərə əsaslanan informasiya cəmiyyətinin yaradılması istiqamətində transmilli fəaliyyət bir qədər də güclənmişdir. İKT-nin inkişafı siyasəti hazırda Azərbaycan dövlətinin fəaliyyətində mühüm yer tutur. Cəmi bir neçə ildə bu sahə üzrə həm milli qanunvericilik, həm də praktiki fəaliyyət xeyli gücləndirilmiş və ciddi nəticələr əldə edilmişdir. Ölkə üzrə informasiya cəmiyyətinin, yeni texnoloji və innovativ biliklərə əsaslanan iqtisadiyyatın formalaşdırılması dövlət tərəfindən dəstəklənir. Respublikada informasiya təhlükəsizliyinin təmin olunması və informasiya texnologiyalarının inkişafı ilə bağlı milli qanunvericilik bazası xeyli təkmilləşdirilmişdir. "Kütləvi informasiya vasitələri haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Məlumat azadlığı haqqında", "Elektron sənəd və elektron imza haqqında", "İnformasiya əldə etmək haqqında", "Telekommunikasiya haqqında", "Dövlət sirri haqqında" və s. qanunların qəbul edilməsi bunun əyani sübutudur [15].

Bunlardan əlavə, informasiya təhlükəsizliyi sahəsində dövlət siyasətinin davamı olaraq "Azərbaycanın inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003 – 2012-ci illər)", "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı", "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı" və s. mühüm sənədlər təsdiq olunmuşdur. Strategiya çərçivəsində "Elektron Azərbaycan - 2005-2008-ci illər" və "Elektron Azərbaycan - 2010-2012-ci illər" dövlət proqramları qəbul olunmuş və icra edilmişdir.

KİV sahəsində informasiya siyasətinin əhatə etdiyi məsələlərdən biri də milli təhlükəsizliyin tərkib hissəsi olan informasiya təhlükəsizliyinin təmin olunmasıdır. Dövlətin milli təhlükəsizlik siyasəti və onun KİV-də işıqlandırılması ilə bağlı Müstəqil Jurnalistlər Liqasının hazırladığı "Mətbuatda dövlət siyasətinin təbliğinə dəstək" adlı bülletendə göstərilir ki, dövlətlərin milli təhlükəsizlik siyasətləri bir-birindən fərqlənsə də, onlar ən azı üç əsas məsələni əhatə etməlidirlər: beynəlxalq sistemdə dövlətin rolu, dərk olunmuş yerli və beynəlxalq problemlər, hallar və bu problemlərə və hallara qarşı iştirakçı aktorların həyata keçirməli olduğu öhdəliklər [10].

Dövlətin informasiya siyasətinin obyekti cəmiyyətin informasiya sferası, predmeti isə informasiya münasibətləridir. İnformasiya siyasətinin məqsədi isə vətəndaşların və ölkənin informasiya-psixoloji təhlükəsizliyini təmin etmək üçün bilgilər sisteminin əldə olunması, dövlət siyasətinin inormasiya-analitik müşayiəti, idarəçiliyin əsas subyekti kimi dövlət tərəfindən qəbul olunmuş qərar və proqramları əhaliyə çatdırmaqdır.

İnformasiya müharibəsi, informasiya qarşıdurması da elə bu kontekstdə özünü qabarıq şəkildə ifadə edir. Bütün bu proseslərin həyata keçməsində,

müəyyən nəticələrin əldə olunmasında isə KİV-in üzərinə böyük missiya düşür. Çünki yuxarıda qeyd olunan proseslərin reallaşmasında obyekt və subyekt olaraq media vasitələri mühüm funksiyalar yerinə yetirirlər. İlk növbədə ona görə ki, dövlətin informasiya siyasətinin yerli, regional, qlobal miqyasda özünü göstərməsi və bunun hansı sürətlə baş verməsi məhz mediadan asılıdır. Media özü də bu prosesdə iştirak etməklə həmin siyasətin cəmiyyət tərəfindən hansı formada qəbul olunmasına birbaşa təsir göstərir. Eyni zamanda, medianın özünün siyasiləşməsi hallarının da mövcudluğu artıq onu siyasətin ayrılmaz tərkib hissələrindən birinə çevirmişdir.

Qeyd etmək lazımdır ki, informasiya təhlükəsizliyinə xarici və daxili təhdidlər, onların qarşısının alınması metodları və s. kimi məsələlər milli təhlükəsizliyin bütün sahələri üçün (iqtisadi, siyasi, hərbi, sərhəd və s.) əsasən ümumi xarakter daşıyır. Mütəxəssislərin fikrinə görə, onların təhlükəsizliyinin təmin olunması metodları bir-birindən fərqlənir. Azərbaycanda informasiya təhlükəsizliyinin təmin olunması məsələləri yuxarıda adı çəkilən bir çox qanunlarla yanaşı ümumi formada Milli Təhlükəsizlik Konsepsiyasında və Azərbaycan Respublikasının "Milli Təhlükəsizlik haqqında" qanununda da öz əksini tapmışdır. Konsepsiyada qeyd olunur ki, Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasına, habelə informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsindən ibarətdir [2].

İnformasiya təhlükəsizliyi siyasəti "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunda da ümumi formada öz əksini tapmışdır. Qanunda Azərbaycan Respublikasının informasiya sahəsində əsas milli maraqları - məlumatların qanuni yolla əldə edilməsi, ötürülməsi, hazırlanması və yayılması kimi vətəndaşların konstitusiya hüquqlarının təmin edilməsi, informasiya ehtiyatlarının qorunması və inkişaf etdirilməsi, informasiya məkanının formalaşdırılması və onun qorunmasının təmin edilməsi, dünya rabitə və informasiya sisteminə daxil olma sahələri üzrə təsnif olunur.

İnkişaf etmiş dünya ölkələrinin təcrübəsi göstərir ki, Azərbaycanda da bu sahə üzrə ayrıca İnformasiya Təhlükəsizliyi Konsepsiyasının yaradılmasına ciddi ehtiyac vardır. Həmin Konsepsiyada milli informasiya fəaliyyəti və təhlükəsizliyi siyasətinin hüquqi əsasları müəyyənləşdirilməli, sistemli formada dövlətin informasiya mühitinin təhlükəsizliyinə təhdidlər öyrənilməli, qruplaşdırılmalı və sistemləşdirilməli, təhdidlərin doğura biləcəyi konkret nəticələr proqnozlaşdırılmalı və bu sahə üzrə dövlət qurumlarının praktiki fəaliyyətin effektivliyi ciddi şəkildə təmin edilməlidir. Ümumiyyətlə, mütəxəssislərin fikrinə görə, hər bir ölkədə informasiya təhlükəsizliyinə təhdidlərin vaxtında müəyyənləşdirilməsi və qarşısının alınması milli təhlükəsizliyinin bütövlükdə təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. İnformasiya təhlükəsizliyinə təhdidlərin vaxtında müəyyənləşdirilməməsi siyasi, iqtisadi, müdafiə və digər sahələrdə milli maraqlara ciddi zərbə vurulmasına, cəmiyyətin xaos və qarşıdurmalara sürüklənməsinə, idarəetmə sisteminin iflic olmasına və mənəvi-əxlaqi dəyər-





lərin aşınmasına gətirib çıxara bilər. Misal olaraq, Ermənistan və Azərbaycan arasında 2014-cü ilin avqustunda cəbhədə yaranmış gərginlik zamanı bəzi yerli sosial şəbəkə istifadəçiləri tank bölmələrimizin manevrini telefonlarla çəkərək internet resurslarında yerləşdirməsini göstərmək olar ki, bununla, necə deyərlər, düşmənin dəyirmanına su tökmüşdü. Məhz bunun nəticəsi olaraq Prezident İlham Əliyev 24 sentyabr 2014-cü ildə «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası silahlı qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında» sərəncam imzaladı. Dövlət sirri təşkil edən məlumatların yayılmasına görə məsuliyyətin gücləndirilməsi sənəddə öz əksini tapdı. Həmçinin qoşunların dislokasiyası, hərbi-siyasi və əməliyyat şəraiti, hərbi sahədə Azərbaycan Respublikasının milli təhlükəsizliyinə xələl gətirə bilən digər məlumatların yayılmasının yolverilməzliyi, jurnalistlərin cəbhə boyu zonada akkreditasiyası, xidməti ezamiyyətlər və digər məsələlər həllini tapdı.

Kütləvi informasiya vasitələrinin nümayəndələri və internet istifadəçiləri arasında aparılan iş öz bəhrəsini 2016-cı il Aprel döyüşləri və İkinci Qarabağ müharibəsi zamanı verdi. Ölkə mediası mənbəyi məlum olmayan informasiyalara deyil, dövlət strukturlarının yaydığı informasiyalara istinad etməyə başladı. Nəticədə Semyon Peqov kimi erməni və ermənipərəst qüvvələrin yaydığı məlumatlar Azərbaycanda düşmənin ümid etdiyi səmərəni vermədi. Qeyd olunan hər iki savaşda informasiya qarşıdurması zamanı ölkə media strukturları, dövlət qurumları düşmənin informasiya həmlələrinin qarşısını məharətlə almağı bacardı.

Azərbaycana qarşı ən böyük informasiya müharibəsi isə heç şübhəsiz ki, İkinci Qarabağ müharibəsi dövründə başda Ermənistan olmaqla bəzi erməni lobbilərinin güclü olduqları Fransa, Rusiya və s. kimi dövlətlər tərəfindən həyata keçirilmişdi. Azərbaycanın haqlı mübarizəsinə kölgə salmaq istəyən, Türkiyəni müharibənin üçüncü tərəfi kimi göstərməyə çalışan, Azərbaycanda muzdlu döyüşçülərin olduğunu iddia edən, ballistik raketlərlə Gəncə və Bərdə kimi cəbhə zonasından uzaq dinc haliyə qarşı törədilən müharibə cinayətlərinin qurbanlarını özününkü kimi dünya ictimaiyyətinə təqdim etməyə çalışan erməni və ermənipərəst qüvvələrin bütün həmlələri qətiyyətlə alınmış, həqiqətlər faktlar və sübutlarla beynəlxalq ictimaiyyətin gözləri önünə sərilmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycana Respublikası Prezidenti İlham Əliyevin hərbi əməliyyatların başlanmasından xeyli əvvəl, eləcə də müharibə və postkonflikt dövründəki fəaliyyəti – yerli və xarici mediada müsahibələri, xalqa müraciətləri, mühüm açıqlama və bəyanatları ölkəmizə qarşı informasiya təxribatlarının qarşısının alınması və milli həqiqətlərin dünya arenasına çıxarılması baxımından xüsusilə əhəmiyyətli olmuşdur. Xatırlatmaq lazımdır ki, hələ 2020-ci il fevralın 15-də Münhen Təhlükəsizlik Konfransında təşkil edilmiş debatda Prezident İlham Əliyevin Ermənistanın Baş naziri Nikol Paşinyanı ciddi fakt və arqumentlərlə ifşa etməsi, iyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatlı sammitində Ermənistanın danışıqları pozmaq cəhdlərini xüsusi vurğulaması, sentyabrın 21-də BMT-nin videokonfrans formatlı 75-ci sessiyasında kəskin və qətiyyətli çıxışı informasiya cəbhəsində Azərbaycanın

mühüm üstünlüyünü təmin etmişdir [16].

Vətən müharibəsinin ilk günlərindən Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev informasiya müharibəsinin xeyrimizə dəyişməsində önəmli rol oynadı. İkinci Qarabağ müharibəsinin davam etdiyi 44 gün ərzində "Əl-Cəzirə", "TRT Haber", CNN-Türk, "CNN İnternational", "Sky News", "Fox News", "Figaro", "La Republica", "Perviy kanal", "Rossiya-1" telekanalları kimi 30-dək əcnəbi media quruluşuna müsahibə verən Prezident İlham Əliyev yüksək diplomatik məharətlə münaqişənin tarixi, danışıqlar mərhələsinin nəticəsiz qalmasının əsas səbəbləri, Ermənistanın qeyri-konstruktiv davranışlarının və ərazi ilhaqı siyasətinin region üçün təhdidləri, beynəlxalq təşkilatların qətiyyətsiz davranışları, habelə Azərbaycanın hərbi əməliyyatların dayandırılması ilə bağlı beynəlxalq hüquqa əsaslanan şərtlərini bəyan etmişdir. Eyni zamanda real faktlar, konkret arqumentlərlə Ermənistanın və onu açıq şəkildə dəstəkləyən dövlətlərin beynəlxalq miqyasda ifşasına nail olmuşdur. Bu müsahibələrdə bəzən peşəkar jurnalist etikası ilə bir araya sığmayan beynəlxalq prinsiplərdən uzaq - qərəzli, birtərəfli, obyektivlikdən, dəqiqlikdən, həqiqətdən uzaq yanaşmaları özündə ehtiva edən suallara rast gəlinsə də, prezident Əliyev bu cür yanaşmalara münasibətdə yüksək diplomatik təmkin, bilik, təcrübə nümayiş etdirmiş, fikirlərini 4 dildə səlis ifadə etməsi ilə strateji məsələlərə konstruktiv yanaşması ilə bir daha bütün dünyaya yüksək liderlik bacarığını və keyfiyyətlərini nümayiş etdirmişdir. Prezident İlham Əliyevin müsahibə və xalqa müraciətləri münaqişənin tarixi, səbəbləri və bu günü ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması baxımından əhəmiyyətli olmuş, eyni zamanda, Ermənistanın işğalçılıq və etnik təmizləmə siyasətinin ifşasına, ATƏT-in Minsk Qrupunun fəaliyyətinin səmərəsizliyi və münaqişənin həllinin regionun gələcək taleyi baxımından mühüm əhəmiyyətinə dair dünya ictimaiyyətində dolğun təsəvvürün formalaşdırılmağa xidmət etmişdir.

Öz çıxışlarında hər zaman müasir informasiya təhlükəsizliyi sahəsində ölkənin milli maraqlarından irəli gələn bir çox vəzifələrə toxunan Azərbaycan Prezidenti, bütün ölkə rəsmilərini və vətəndaşlarını, dünya azərbaycanlılarını erməni lobbisi ilə informasiya mübarizəsinə daim hazır olmağa səsləmişdir.

Sonda isə qeyd edək ki, informasiya təhlükəsizliyi siyasətinin əsas vəzifələrindən biri həm özünün, həm də tərəfdaş region dövlətlərinin, transmilli informasiya vasitələrinin imkanlarından maksimum bəhrələnərək, beynəlxalq ictimaiyyətə çıxış kanalları və təsir mexanizmləri yaratmaqdan ibarətdir. Məhz bu sahədə görülən tədbirlər Azərbaycanda qeyd olunan məsələlərin dövlətin əsas prioritet siyasətini təşkil etdiyini deməyə əsas verir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. "Azərbaycan" qəzeti, 1998, 7 avqust
2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası. Bakı: Qanun, 2007







3. "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. "Azərbaycan" qəzeti, 1998, 7 avqust
4. "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı. Bakı: 2 aprel 2014
5. Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası. Bakı: 31 iyul 2008
6. 6. Heydər Əliyev və mətbuat. 4 cilddə, IV cild, Bakı: Nurlar, 2003, 640 s.
7. "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 5 noyabr 2004. // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. Bakı: "Azərbaycan", 2007-ci il, № 6, maddə 601
8. "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: 30 sentyabr 2005
9. "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu. "Azərbaycan" qəzeti, Bakı, 2000, 13 fevral, № 34
10. Mətbuatda dövlət siyasətinin təbliğinə dəstək: reallıqlar, problemlər, vəzifələr. Bakı: Şəms, 2009, 62 s.
11. Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik. Bakı: Bakı Universiteti, 2005, 545 s.
12. Rüstəmov A. İnformasiya təhlükəsizliyi sahəsində dövlət siyasəti. "Azərbaycan" qəzeti, 21 aprel 2017
13. "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: 25 iyun 2002
14. https://aihmaz. org/media-haqqinda-yeni-qanun-ifad%C9%99-v%C9%99-media-azadligina-genis-m
15. Cm:http://e-qanun. az.
16. https://geostrategiya. az/news. php?id=181